# İbrahim YILDIRIM – Azərbaycanda Yunus Əmrə İnstitutunun direktoru:

# "Yunus Əmrə təmiz türkcə ilə "DOSTUN EVİ KÖNÜLLƏRDİR...""



Bu gün birdən-birə hava yenə soyudugBayırda bərk külək əsir, çovğun vargBir neçə gün öncə aldığım müsahibəni qələmə alıram bu gün.Elə həmin gün, müsahibə aldığım gün də beləcə covğun vardı.Hələ qar da yağırdı həmin gün...

**"Sordum sarı çiçəyə: Sen beni bilirmisin?.."**

Taksi ilə gəldiyimçün, vədələşdiyimiz vaxtdan bir az da tez çatdım ünvanagƏslində, başqa bir qonağı olduğu üçün İbrahim bəy özü vəd etdiyi vaxtın yarım saat sonraya keçirilməsini xahiş etmişdi.Bəmbəyaz qarı çox sevsəm də,hava çox soyuqdu.Bir az ətrafda gəzişməklə vaxtın keçməsini gözlədim... Çox sevdiyim Yunus Əmrənin adını yaşadan bir məkana gül-çüçəksiz getmək istəmədim... Soraqlayıb bir gül mağazası tapdım.Rəngarəng gül-çiçəklər, qızılgüllər... Qızılgül almaq istədim,əvvəlcəg Yunusun "Adı gözəl, özü gözəl Muhəmməd"- deyə öydüyü Peyğəmbər əfəndimizin (s.a.s.) rəmzi olan qızıl gül!.. Və birdən gözüm bir kənarda düzülmüş sarı çiçəklərə sataşdı... Bir neçə gün əvvəldən nə hədiyyə aparacağımı düşünərkən, fikrimdən heç çıxmayan "Sarı çiçək" ilahisini xatırladımg Və artıq gül mağazasından çıxarkən tək deyildim o soyuqda. Sarı çiçək də mənimləydi.Ürəyimdə, Yunusun söhbətləşdiyi sarı çıçəklə söhbətləşərək, xəyalımdakı "Sarı çiçək" ilahisinin sədaları ilə görüşə tələsirdimg Sanki, Yunus Əmrənin özü ilə görüşə gedirdim.O qədər həyəcanlıydım kigMüsahibə götürəcəyim insanı yalnız bir dəfə görmüşdüm. Amma mən onun qapısına yox, Yunusun qapısına gəlmişdimg O Yunus ki, mürşidinin qapısında: "Tapdığın tapusunda, Qul olduq qapusunda, Yunus miskin çiy idik, Bişdik,əlhəmdülillah!"- demişdi... Mənsə, o gün illərdir sevdiyim, ilahiləri dilimin əzbəri olan, Haqqdan gələn şərbəti içib bizi də sərməst edən bu Haqq aşiqinin sanki öz əlləriylə qurduğu, xeyirdua verdiyi mübarək bir məkana üz tutmuşdum.. Yunus Əmrəni haçandan sevirəm,görəsən?Şeirlərilə,ilahiləriylə yeni tanış olduğum tələbəlik illərindənmi?Yox,daha əvvəl,çox-çox əvvəldən yol gəlir bu sevgi"Qalu bəla"dan xoş gəlir o ilahilərin səsi qulağıma, könlüməg Yunusun qapısındaydımg Dəhlizdə gözləməli oldum bir az dagOlduqca nəzakətli insanlar çalışır burdagÖzümü doğmalar arasında rahat hiss edirəmg Çaya qonaq edirlər.Mənimsə diqqətimi masa üzərindəki müxtəlif ölçülü kiçik karton parçalarına yazılmış Yunusun sözləri cəlb edir: "Biməyən nə bilsin bizi, Bilənlərə salam olsun!" Bu misralar mənim illərdir dilimdən düşməyən bir Yunus duasıdır,sanki... Vaxtilə, Dövlət Radiosunda yaradıcısı və aparıcısı olduğum "Bilənlərə salam olsun!" proqramının, sonradan dəyərli insanlardan söz açdığım silsilə kitablarımın xeyirduasidir bu salam... "Bilənlərə salam olsun!"

Nəhayət, İbrahim bəy qonağını yola salırgMəni gülər üzlə qarşılayır. Əlimdəki çiçəyi görüb,bəlkə də nəzakət xətrinə, "Nə gözəl çiçəyiniz var!.."- deyir. "Bu,Yunusun sarı çiçəyidir.Yunusla söhbətləşən sarı çiçək!Sizə gətirmişəm!"- deyirəm. Böyük bir nəzakətlə hədiyyəmi qəbul edir, vazaya qoyaraq, iş stolunun üzərində çiçəyə yer ayırır.Daha sonra kitablarımı hədiyyə edirəm.Necə deyərlər, "dərvişin hədiyyəsi yaşıl yarpaqdır". Dərviş könülü qələm əhlinin də daha qiymətli nə hədiyyəsi olacaqgYenə son dərəcə böyük nəzakətlə qarşılayır.. Bu işıqlı insanın üzündəki uşaq təbəssümü, davranışındakı zəriflik, nəzakət o qədər doğma gəlir ki insana...

**"Gəlin tanış olalım, işi qolay qılalım..."**

Müsahibimin dəyərli vaxtını çox almadan söhbətə başlayıram.

**-"İbrahim Yıldırım kimdir?"- sualına özünüz necə cavab verərdiniz?**

Sualıma ürəkdən gülüb, bir anlıq düşünür və:

O qədər çətin ki...Bunun cavabını mən illərdir,tapa bilmədim...

Bu özü də gözəl bir cavabdır! Bəli,cavabını tapa bilmədim bu sualıngYəni,indi belə cavab vermək mümkündürmü,bilmirəm.Hər kəs kimi İbrahim Yıldırım da bir insandır.

Allahın qulu...

Bəli,Allahın qulu! Qayğıları var, sevincləri vargHüzünləri var... Ümidləri vargSadə bir insan,bir vətəndaşdırgYəni, ölümlü olduğunu bilən, əvvəl-axır fani olacağını bilən bir insan!..

Allah üzün ömür versin sizə!..

Allah razı olsun.Amma bu bir gerçəkdir!

Bəs,vəzifə başında olan bir insan olaraq özünüzü necə tanıdardınız bizə?

Onu belə söyləmək mümkündür; Mənim indi gördüyüm iş, bir mədəniyyət körpüsüdür,əslindəgYəni, bizim, Yunus Əmrə İnstitutlarının hal-hazırda dünyada 48 şöbəmiz var, 42 ölkədə fəaliyyət göstəririk.Və gördüyümüz iş də həmin ölkələrlə Türkiyə arasındakı bağları gücləndirməkdir.Bağlar dedikdə,

Mədəniyyət əlaqələrini nəzərdə tuturam.Yəni, dil öyrətmək istəyirik. Türkcəni öyrədirik biz. Bundan əlavə, ədəbiyyatdan, sənətdən, rəssamlıqdan, filmlərdən, türk mətbəxindən mədəniyyətimizə xas olan örnəklər gətiririk. Bir sözlə, sevə-sevə, könül xoşluğu ilə, dostcasına, paylaşma duyğusuyla insanlarla işbirliyi yaradaraq bərabər çalışırıq. Gördüyümüz iş – bir könül körpüsü yaratmaqdır,əslində!İnsanların könlünə girməyə çalışırıq.Çünki, insanların könlünə girdinizsə, demək, ən doğru yerdəsiniz! Siyasət də dəyişə bilər, iqtisadi balanslar da dəyişə bilər, amma könüllər asanlıqla dəyişməz!..Bizim də vəzifəmiz, İbrahim Yıldırım və Yunus Əmrə İnstitutu kollektivinin gördüyü iş insanların könlünə girə bilməkdir!

-Bu sözlərinizlə Yunus Əmrənin misralarını xatırlatdınız mənə:

"Çalış,qazan,ye, yedir,
Bir könül ələ gətir..."

-Bəli,fəlsəfəmiz odur – Yunusdur,yəni!..

**"Dünyada ən gözəl fotoşəkil..."**

– Sizinlə söhbətə hazırlaşarkən gördüyünüz işlərlə əlaqədar internet səhifələrini araşdırdım bir azgMənə çox maraqlı gələn bir faktı öyrəndim.Qazaxstanda olarkən televiziyaya verdiyiniz bir müsahibədə uşaq oyunları ilə əlaqədar keçiriləcək bir proqramdan bəhs edərkən, doktorluq mövzunuzun da məhz uşaq oyunları barədə olduğunu söylədiniz.

-Bəli,doğrudur, elədir! (Bu sözlərimlə müsahibimin üzündəki uşaq təbəssümü bir az da artdı.Deyəsən, onun üçün olduqca maraqlı bir mövzuya toxunmuşdum...)

**– Mövzunuz uşaq psixologiyası ilə əlaqədardır, ya folklorla?**

-Folklorla! Qeyd edim ki, mən ədəbiyyat təhsili almışam.Ankara Universitetinin Türk dili və ədəbiyyatı bölümünü bitirmişəm.Bir müddət müəllimlik etdəndən sonra, universitetə keçdim.Ondan sonra isə Yunus Əmrə İnstitutundayam.Onu deyim ki, yetişdiyim mühit də yaxşı bir mühit idi.

**-Türkiyənin hansı şəhərindənsiniz?**

-Yozqartdan.Yozqart kiçik bir şəhərdir.Anadolunun qədim ənənələrinə bağlı gözəl bir şəhərdir.

**-Bu şəhərdən olan artıq bir qardaşım var.İndi İstanbulda çalışır.Osmanlı Dövlət Arxivində şöbə müdiridir.Orhan Sakin bey. Həm də gözəl araşdırmaçı-yazardır, gözəl kitabları var.**

-Tanımıram. Amma inanıram ki, yaxşı bir insandır!

**-Yozqartlı olduğu üçünmü?**

Bir söz demədən yenə uşaq təbəssümü ilə cavab verir... Və söhbətinə davam edir:

-Bəli. Mən yaxşı bir mühitdə yetişdim.Yəni, insanların hələ interneti bilmədikləri, televiziyanın hələ yeni-yeni ortaya gəldiyi, radionun çox populyar olduğu illərdə yetişdimgVə həqiqətən. Anadolu mədəniyyətini tanıdığımı düşünürəm.Biz Leylayla Məcnun hekayəsini, Kərəm ilə Əslini, Koroğlunu dinləyərək böyüdük.Onlar bizim gözümüzdə böyütdüyümüz eşq qəhrəmanları, xalq qəhrəmanlarıydıg Sonra bol-bol kitab oxuduq o illərdəg-Çünki başqa bir məşğuliyyət də yox idi,əslindəgNə iş görəsiydik ki?Kitablar vardı təkcəg... Və əlbəttə ki, peşiman deyilikgÇox gözəl kitablar oxuduq.Yəni, almış olduğum təhsilə uyğun bir iş gördüyüm qənaətindəyəm. Doktorluq işim hələ bitməyibg-Bilirsiniz, uşaq oyunları iki cürdür: texnoloji oyunlar var, bir də ənənəvi oyunlar.Mənim işim ənənəylə bağlıdır.Ənənəvi uşaq oyunları folklorla əlaqədardır.

**– Qazaxstandakı müsahibənizdə "Hansımız "Beşdaş" oynamadıq?"- dediyinizi eşidəndə uzaq uşaqlıq illərim yadıma düşdüg "Doğrudan da, hansımız oynamadıq ki?"- deyə düşündüm. Bunlar Türk dünyasına məxsus ortaq uşaq oyunlarıdır.**

– Elədir. Bunlar ortaq uşaq oyunlarımızdır.Uşaqlıqda siz də, mən də oynadıq.Qazaxlar da, balkanlar da oynadı bu oyunlarıg

**-Nedən, məhz bu mövzunu seçdiniz?Bir yol göstərənmi oldu, ya öz istəyinizdi?**

-Əslində, mən əvvəlcə, "Kaşğarlı Mahmudun əsərində qadın" mövzusunu işləmək istədim.Sonra "Divani-lüğətit-türk"ü oxuduqca gördüm ki, burda uşaq oyunları da var. Bu məni çox heyrətləndirdi, həyəcanlandırdı!..Və mən uşaq oyunlarını seçdim! (Bu sözləri söylərkən müsahibimin üzündə məsum bir uşaq sevinci parladıg Çoxdan axtardığını, nəhayət, tapmış, ya da çətin bir oyunda qalib gəlmiş bir uşağın sevinci!..)

**-Uşaqlardan yazan, onlarla çalışan insanlar sanki özləri də bir az uşaqdırlar hələ, eləmi?**

Müsahibimin üzündəki məsum uşaq təbəssümü bir az da artır və oyun zamanı inadkar, amma həm də utancaq bir uşağın xoş ədası ilə verdiyi cavab bu təmizqəlbli insanın əsl etirafı kimi səslənir:

-Bəli, bunu söyləyə bilərəm ki, mən bir uşağam,əslində!..

Sonra isə bu uşaq təbəssümünün arxasında gizlənən böyük bir ağrı-acını dilə gətirir:

Dünyada ən gözəl fotoşəkil oyun oynamaqdan yanaqları qızarmış bir uşağın təbəssümüdür, əslində!..Yəni, uşaqların xoşbəxt olduğu bir dünya olmalıdır hədəfimiz!Amma belə deyildir,əlbəttə,bilirəmgYəni,bu dünyanı idarə edənlər, rəhbərlərimiz, siyasətçilərimiz, elm adamlarımız, bir sözlə, məncə, hər kəs dünyanı gözəlləşdirməyə çalışmalıdırgİndi görürsünüz, bombalar yağdırılır, insanlar ölür. Nə qədər insan evsiz-eşiksiz qalırgQaçqın, köçkün olurlargUşaqlara verdiyimiz bu əzab, bu zülüm məni cox əzir, əzab verir,əslindəgMən uşaqların xoşbəxt ola biləcəyi bir dünya istəyirəm!..Üstəlik, bu gün uşaqlar texnikanın əsiri olmuşlargOnlar ekrana bağlı yaşayırlar!..Məhz ona görə, mən də onları bu əsarətdən, bəlkə oyunlarla qurtara biləcəyimizi düşünürəm...

Gözəl bir çarədir,əslində.Bugünkü uşaqların bu ənənəvi oyunları sevəcəyinə mən də inanıram.Əsas olan isə onları necə sevdirməyi bacarmaqdır.

Bilirsiniz,oynamaq uşağın

## İbrahim YILDIRIM – Azərbaycanda Yunus Əmrə İnstitutunun direktoru:

# "Yunus Əmrə təmiz türkcə ilə İslami və bəşəri mesajları dünyaya çatdırıb"



(başlanğıcı 8-9-cu səhifələrdə)

**-Dil kursaları açdınız bu bir ilde...Türk dilinin öyredilmesi üçün gözel bir layihe heyata keçirirsiniz.İsteyinize, sizce, ne qeder nail ola bilmisiniz?Bu layihenin, yeqin ki, bütün tehsil müessiselerini ehate etmesi çetindir.**

-Hər mədəniyyət yönümlü fəaliyyətdə maddi imkan lazımdır. Pul olmayanda, maddi imkan olmayanda çətin olur, əlbəttə... Mədəni işlərə də insanlar çox pul xərcləmirlər... Bakı Dövlət Universitetində, Avrasiya Universitetində, Xarici Dillər Universitetində kurslarımız var. Bundan əlavə, məktəblərə də gedirik.Üç orta məktəbdə uşaqlara türkcə öyrədirik.Onlara müasir təhsil sisteminə uyğun dərs keçilir.Hal-hazırda 450-yə yaxın tələbəmiz var.Bu sayın 5000 olmasını istərdik, əlbəttə. Amma bunun üçün müəllimimiz yoxdurg Elə 5000 insana veriləcək kitabımız da...

**-Bu kurslara görə müəyyən qeder tehsil haqqı da alırsınızmı telebelerden?Düşünürem ki,bu simvolik bir reqem ola biler...**

-Yəni, həqiqətən, simvolik bir rəqəmdir.Məsələn, uşaq 3 ay kursa gəlir, 144 saat dərs alır, qarşılığında 50 manat pul ödəyir.

**-Yeqin ki, bu da kitab puludur, eslinde.**

-Bəli, kitab pulu... Biz onlara çox gözəl kitablar veririk. Pul alırıq, çünki dərsləri pulsuz verdiyiniz zaman qiyməti olmurg-Yəni, nəyi isə pulsuz verdiyin zaman, təəssüf ki, onun qiyməti olmur...

**-Teessüf ki, bezen, doğrudan da, beledirgGördüyün işin qarşılığında halal olan pulunu almayanda senin bu işi boş oturmamaq üçün, asude ve işsiz qaldığın üçün gördüyünü düşünenler de varg "Ne var ki burda?"-deyirler...**

– Elədir... Pul verdikləri zaman insanlar onu qiymətli görürlərg Pul verməyəndə uşaq da onun dəyərini bilmir...

**-Amma yeqin ki, pul vermek imkanı olmayan valideynleri de nezere alırsınız...**

-Əlbəttə, şübhəsiz!

**-Başqalarının cezasını onlar çekmesin...**

-Yox, əlbəttə ki, yox!..

**"Hepisinden iyisi bir gönülə girməkdir..."**

**-Qarşıdan yeni il – 2017-ci il gelirg Dünyamıza, hamımıza xeyirli gelsin,İnşallah!..**

-İnşallah! Sağ olun!

**-Bizi ne kimi yeni layiheler gözleyir yeni ilde? Yunus Əmre İnstitutu hansı sürprizler hazırlayır bize?**

– Hələ bu ilin son günlərinədək də tədbirlərimiz var. 15 dekabrda BDU-da Ahmed Hamdi Tanpınara həsr olunan esse yarışmasının mükafatlandırma mərasimi var. 21 dekabrda "Park –İnn" otelində Ənənəvi Qadın Geyimləri Moda nümayişimiz var. Daha sonra da Heydər Əliyev adına sarayda böyük bir konsertimiz. Buyurun, gəlin!..Gəlmək istəyənlərin hamısını dəvət edirik, gəlsinlər...

-İnşallah.Təşəkkür edirəm.Bəs, gələn il üçün layihələrinizi sürpriz olaraqmı saxlayırsınız?

İş stolunun üzərindəki bir dəstə vərəqi göstərir:

-Bunlar, 2017-ci ildə görəcəyimiz işlərin planıdırg Bir az sonra toplantı keçirəcəyik bununla əlaqədar. Ankarada rəhbərliyin də, Böyük elçiliyimizin də razılığını aldıq, təsdiq etdilər.İnşallah, Allah ömür verərsə, bunları 2017-ci il ərzində həyata keçirəcəyik.15 layihəmiz var bu planda.Sadəcə, vaxtları dəyişə bilər.Buna görə də bu barədə sizə daha sonra bildirərəm.

**-Amma bir layiheniz barede artıq sosial şebekede xeber vermisiniz – Yunus Əmre ilahileri konserti.Onun vaxtı nece?Deyişe bilermi?**

-Onu fevralın 20-də Şəkidə təşkil etmək istəyirik.

**-İnşallah, Yunus Əmre ilahilerinin seslendiyi gözel bir konsert olacağına inanıramg Əfendim, "Yunus Əmre sizinçün kimdir?"-soruşsam... Ve bir de söylersinizmi, neden bu institutun adı Yunus Əmredir?**

-Yunus Əmrə ərəbcənin, farscanın hakim olduğu bir zamanda türkcə yazmağı seçmiş, türkcə yazmağa üstünlük vermiş bir şairdir!Yəni, öz dilini işlətmiş, əzilməmiş, utanmamış, qürur duyaraq türkcə şeirlər yazmışdırg- Bu, bir qəhrəmanlıqdır!..İkinci bir cəhətdən, onun işlətdiyi dil çox təmiz bir dildir və o qədər sadədir ki, bu gün belə Yunus Əmrəni rahatca başa düşürük. O, sadə türkcəyə, təmiz türkcəyə İslamın mesajlarını, bəşəri mesajları çox gözəl yerləşdirmiş, insanları sıxmadan, üzmədən, əyləndirərək hətta, onlara islamı, islamın əsasını öyrətmişdir!..İkinci cəhətdən də baxdığımızda, o həm sevgisiylə bütün dünyanı qucaqlayır və həm də türkcə ilə görmüşdür bu işig Deməк, ona görə də belə bir institut açılarkən, Yunus Əmrədən daha gözəl bir ad ola bilməzdi!..Sağ olsunlar böyüklərimiz də, siyasətçilərimiz də belə təqdir etmişlər və ortaya gözəl bir ad çıxmışdır...

**-Beli,olduqca gözel bir seçimdir bu!.. Bes, Yunusdan en çox sevdiyiniz misralar? Yaxud onun ilahilerinden hansını daha çox sevdiyinizi bilmek isterdim...**

-Vallah, Yunusun çox şeirini bilirəm.Amma onun ən gözəl və hər zaman fikrimdə olan bir şeirini daha çox sevirəm.. "Dünya kimsəyə qalmaz" – dediyi bir şeiri var Yunusun: "Sevəlim, sevilelim, dünya kimsəyə qalmaz." Bir də:

**Könül Çalabın taxtı,**
**Çalab könüle baxdı,**
**İki cahan bedbaxtı,**
**Kim könül yıxar ise".**

Məhz, budur! Bu qədər dəqiqdir! Yəni, mərkəzə insanı qoyduğumuzda, insana dəyər verdiyimizdə, yaşamaq da, yaratmaq da asanlaşır, dünyanın, həyatın ahəngi gözəlləşir! Bu, çox önəmlidir! Yunusu dərk etmək, tanımaq üçün bu dördlüklər çox önəmlidir.Ən çox sevdiyim şeirlərindən biri də budur:

**Bir kez könül yıxdın ise,**
**O qıldığın namaz deyil.**
**Yetmiş iki millet dexi**
**Əlin-üzün yumaz deyil.**

Yəni, yenə könülü müqəddəs sayan, onun şənini ucaldan bir ifadədir bu! Siz min kərə də namaz qılsanız, əgər insanları incidirsinizsə, onlara yalan söyləyirsinizsə, demək, güvənilməz bir insansınızgÇünki, əsas olan güvənilən bir insan olmaqdır! Peyğəmbərimiz də (s.a.s.) hər şeydən öncə, güvənilən bir insan idi. Əgər sizə güvənməsələr, istər oruc tutun, istər namaz qılın, nə faydası? Ona görə də insanların könlünü yıxmayacaqsınız., güvənilən bir insan olacaqsınız...

-Elədir.Və Yunus Əmrə həm də deyir ki:

Çalış, qazan, ye, yedir,

**Bir könül ele getir,**
**Yüz Kebeden yeyrekdir,**
**Bir könül ziyareti.**

**Bəli!.. "Hepisinden iyisi bir gönülə girməkdir!"**

Söyləmək istədiklərim, soruşub öyrənmək arzusunda olduqlarım bitməsə də, söhbətimizi burda bitirməli oluramg-Vaxt qiymətli, iş çox, İbrahim bəyin növbəti qonaqları da artıq qapıdag Sağlıq olsun təkigSağollaşıb ayrılıram...

**"Bilməyən nə bilsin bizi?.."**

Bu yazını çapa hazırlayarkən, qardaş Türkiyədən yenə bir acı xəbər aldıqg İdman oyunu keçirilib başa çatdıqdan sonra, vəzifə başında olan, işdən evinə, ailəsinin yanına dönməyə hazırlaşan fədakar türk polisləri insanlıqdan bixəbər olanların alçaq və iyrənc bir oyununun – terror oyununun qurbanı oldug Çoxsaylı şəhidimiz, yaralılarımız varg Neçə gündən bəri İbrahim bəydən gözlədiyim layihələrlə bağlı əlavə bilgiləri gözlədiyimçün yazının çapını ləngidirdim.Gəncədə önəmli bir tədbirdə olduğunu bildirib, tezliklə göndərəcəyinə söz verdi.Sonra isə bu xəbəri aldıq İstanbuldan. Sosial şəbəkədə yazdıqlarını oxuyub səsinə səs versəm də, acınız acımızdır, əziz qardaşım!"-söyləsəm də, telefonla danışmaq hələ mümkün olmayıbg Əziz İbrahim bəy, o gözəl könlünü, o uşaq təbəssümlü nurlu üzünü güldürə biləcək bir kəlməni hardan tapım indi? Ürək ağrısıyla söylədiyin sözləri xatırlayıram: "Mən uşaqların xoşbəxt ola biləcəyi bir dünya istəyirəm!.." Bayırda yenə soyuq küləklər əsir, çovğundur yenəg Əgər səsimi çatdıra bilsəydilər, küləklərlə sənə Yunusun dilimin əzbəri olan bir bəndini göndərərdim:

**"Dərviş Yunus söyler sözü,**
**Yaş doludur iki gözü,**
**Bilmeyen ne bilsin bizi?**
**Bilenlere salam olsun!"**

Axı,insanlıqdan bixəbərlər hardan bilsin, "bu dünyada ən gözəl fotoşəkil oyun oynamaqdan yanaqları qızarmış bir uşağın təbəssümüdürg" Bilsələr, o şəhid olan igidlərin ailələrini gözüyaşlı, körpələrini ağlar qoyarlarmı? O bilməyənlər hardan bilsin ki, Yunus bir könülü yıxanı iki cahan bədbəxti adlandırıb? Məgər onlar şeir,türkü,ilahimi bilirlər? Nə bilsinlər?Bu ayın əvvəlində insanları "Beynəlxalq Muğam Mərkəzində təşkil etdiyiniz "Ustadlara sayğı gecəsi"nə dəvət edərkən sosial şəbəkədə yazdığınız sözləri xatırladım.Neşat Ertaşdan paylaşdığınız bu fikir çox xoşuma gəlmişdi: "Harda bir türkü söyləyən görsən, qorxma, yanında otur. Çünki, pis insanların türküləri yoxdur!.." Bəli, pis niyyətli insanların türküləri yoxdur!.. Onlar hardan bilsinlər türkü nədir? Heç türkü bilən də Türkü –gözəl insanları öldürərmi?.. Amma şəhidlər ölməz, əziz qardaşım! Yunus Əmrənin adının,ruhunun işığında Vətənimə gələn,dərviş könüllü könüllü dərviş! Sən üzülmə,axı, sən "könüllər yapmağa gəldin"- Yunus kimi!.. Sən üzülsən, biz neyləyək onda? Axı, Yunus demişkən, "Bilməyən nə bilsin bizi? Bilənlərə salam olsun!"

**ŞƏLALƏ ANA HÜMMƏTLİ,**
**ədəbiyyatşünas-şair, filologiya üzrə fəlsəfə doktoru**